**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜƏSSİSƏNİN MALİYYƏ DAYANIQLIĞININ QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5304.01 – “İqtisadi fəaliyyət növləri”

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Turan Əliağa qızı Tağıyeva**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin “Sənayenin iqtisadiyyatı” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor<br>**Qənimət Əsəd oğlu Səfərov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor<br>**Elşən Mahmud oğlu Hacızadə**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Ələsgər Mehdi oğlu Əliyev**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Ramil Məhəmmədəli oğlu Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin ED 2.46 Birgə Dissertasiya şurası

Birgə Dissertasiya şurasının sədri: ______________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor<br>**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının elmi katibi: ______________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ______________ iqtisad elmləri doktoru, professor vəzifəsini icra edən<br>**Möhübbət Musa oğlu Hüseynov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Sənaye müəssisələrinin maliyyəsi, əsas və dövriyyə vəsaitlərinin, məhsulun istehsalı və reallaşdırılması, pul mədaxilinin yaranması və istifadəsi, müəssisənin pul resursları fondu dövretmə prosesində iqtisadi münasibətlərin pul formasını xarakterizə edir. Sənayenin maliyyəsi aşağıdakı funksiyaları yerinə yetirir: təsərrüfat fəaliyyəti prosesində pul vəsaitləri fondu və pul mədaxilinin yaranması; pul mədaxili və pul vəsaitləri fondunun istehsalın inkişafı üçün istifadə edilməsi; müəssisə əməkdaşlarının stimullaşdırılması və büdcənin mədaxilinin formalaşması; müəssisənin pul vəsaitləri fondu və pul vəsaitinin bölgüsü və istifadə edilməsinə nəzarət.

Pul vəsaitləri və mədaxilin yaranması, istehsal prosesinin fasiləsizliyinin vacib şərtidir. Bu funksiyanı həyata keçirməklə müəssisə, məhsul istehsalı və reallaşdırılması, əsas və dövriyyə fondlarının artırılması, iqtisadi stimullaşdırma fondunun formalaşması üçün maliyyə resursları yaradır. Bu məqsədlərin reallaşdırılmasına yönəldilmiş vəsaitlərin iqtisadi əsaslandırılmış kəmiyyəti, məhsul istehsalı və reallaşdırılmasına qoyulmuş planın yerinə yetirilməsi üçün maliyyə resurslarının yaranma mənbəyinin müəyyən edilməsi müəssisənin maliyyə planında həll edilir. Bütün bunlar isə müəssisənin maliyyə vəziyyətini xarakterizə edir. Müəssisənin maliyyə vəziyyətinin dəqiq və obyektiv qiymətləndirilməsi həm onun mülkiyyətçisi və təşkilatın rəhbərliyi, həm də kənar istifadəçilər (bank, investor, tədarükçü, vergi təşkilatı və s.) üçün vacibdir. Maliyyə vəziyyəti istehsal və kommersiya fəaliyyətinə, müəssisənin material və maliyyə resurslarının təminatına bilavasitə təsir edir. Qeyri qənaətbəxş maliyyə vəziyyəti təşkilatın işçiləri, büdcə, büdcədən kənar fondlar, tədarükçü, bank və digərləri ilə vaxtında hesablaşmağa imkan vermir və sonda bu, müəssisənin müflis olmasına gətirib çıxara bilər.

Digər tərəfdən müəssisənin maliyyə vəziyyəti onun istehsal və kommersiya fəaliyyətindən bilavasitə asılıdır. Beləki, istehsal və satışdakı çatışmazlıqlar nəticəsində pul vəsaitlərinin axını azalır və bununla əlaqədar olaraq müəssisənin maliyyə dayanıqlığı aşağı düşür.

Əgər bu proses davamlı olarsa, onda müəssisə müflis vəziyyətinə düşə bilər.

Bu və ya digər müəssisənin rəqabətqabiliyyətliyi, investisiya cəlb ediciliyi, bazar seqmentində tutduğu yerin müəyyən edilməsi, onun maliyyə vəziyyəti ilə şərtlənir. Müəssisənin maliyyə xidməti qarşısında onun maliyyə vəziyyətinin qiymətləndirilməsinə dair məsələ qoyulur və maliyyə dayanıqlığının yüksəldilməsi üzrə tədbirlərin işlənməsi həll edilir.

Hər bir müəssisə özünün istehsal-təsərrüfat fəaliyyətində xərclərin azaldılması, daxili vəsaitləri və başqa mənbələrdən istifadə edərək mənfəətinin artırılması məsələsinin həlli üçün tədbirlər hazırlayır. Bu zaman müəssisənin istehsal fondlarından, özünün dövriyyə fondlarından səmərəli istifadə olunması ilə vəsaitlərin dövr etmə sürətinin artırılması, bununla da bir istehsal mərhələsinə sərf edilən vaxtın azaldılmasına nail olunur. Bütün bunlar isə müəssisənin maliyyə vəziyyətinin yaxşılaşdırılmasına xidmət edir.

Müəssisənin potensialı bir sıra göstəricilərlə müəyyən edilir. Onun potensialı başqa şərtlərlə yanaşı, həmçinin maliyyə göstəricilərinin səviyyəsi ilə də şərtlənir. Belə ki, müəssisə digər bir müəssisə ilə iqtisadi əlaqələr qurarkən, ilk növbədə onun maliyyə vəziyyəti ilə maraqlanır. Daha doğrusu, müəssisənin maliyyə göstəriciləri olan likvidlik, ödəmə qabiliyyəti, mənfəəti və s. onun rəqabətqabiliyyətini səciyyələndirir, bütün bunlar qarşılıqlı iqtisadi münasibətlərin qurulmasında mühüm əhəmiyyət kəsb edir.

Rəqəmsal iqtisadiyyata transformasiya şəraitində müəssisənin maliyyə dayanıqlığı, onu səciyyələndirən kompleks göstəricilərin, istehsal-təsərrüfat fəaliyyətini xarakterizə edən reallaşdırılmış məhsul, maya dəyəri və s. tədqiqi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan məsələnin qoyuluşu, onun nəzəri-metodoloji aspektlərinin tədqiqi, alınan nəticələrin faktiki məlumatlarla yoxlanılması zərurəti yaranır.

Məhz bu baxımdan müəssisələrin maliyyə dayanıqlığının tədqiqinə xüsusi tələblər qoyulur. Məsələ burasındadır ki, hər bir müəssisə öz istehsal-təsərrüfat fəaliyyətində digərləri ilə iqtisadi əlaqələrdə olarkən, bir sıra risklər meydana çıxa bilər. Bu baxımdan bütün hallarda müəssisənin maliyyə təhlükəsizliyi, onun qorunması çox böyük aktuallıq kəsb edir. Təbiidir ki, bütün bunlar, müəssisənin

gələcək inkişafını, onun bazarda işgüzar aktivliyini, investisiya yatırılması üçün əlverişli olmasını şərtləndirir.

Digər tərəfdən, müəssisənin maliyyə dayanıqlığının qiymətləndirilməsi, onun idarə edilməsinin təkmilləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Bu problemin həlli maliyyə dayanıqlığı, onun səviyyəsini müəyyən edən amillərin kompleks araşdırılmasını zəruri edir. Bütün bunlar isə tədqiq olunan mövzunun aktuallığına dəlalət etməklə, onun quruluşunun və istiqamətinin seçilməsini müəyyən etmişdir.

Məsələnin aktuallığı həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanı ilə şərtlənir. Bu sənəddə iqtisadiyyatın 12 əsas sektoru üzrə Strateji Yol Xəritələri (SYX) təsdiq edilmişdir. Burada milli iqtisadiyyatın perspektivi, neft və qaz sənayesinin, maşınqayırmanın və maliyyə xidmətinin inkişafına xüsusi diqqət yetirilmişdir ki, bu da dissertasiya işinin mövzusunun aktuallığına dəlalət edir.

Bundan başqa "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə (02.02.2021) dair qəbul edilmiş sənəddə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair qəbul olunmuş beş Milli Prioritetdən biri, yəni "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" istiqaməti də baxılan tədqiqat işinin aktuallığını səciyyələndirir.

Neft-qaz kompleksi, neftmaşınqayırma sənayesi, onların texniki-texnoloji-iqtisadi problemləri, bütövlükdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafı və s. məsələlər öz əksini akademiklər A.A.Mirzəcanzadə [107], Z.Ə.Səmədzadə [15, 44], AMEA-nın müxbir üzvləri Ş.M.Muradov [38], Ə.X.Nuriyev [39], A.F.Musayev [108], iqtisad elmləri doktorları, professorlar M.C.Atakişiyev [2, 3], N.A.Əliyev [21], T.N.Əliyev [22, 23], Ş.T.Əliyev [24], E.M.Hacızadə [27, 28], A.G.Hüseynov [29], R.K.İsgəndərov [30], Y.A.Kəlbiyev [31], S.M.Qasımov [34], F.H.Qasımov [33], Q.Ə.Səfərov [41, 42, 118], Ş.Ə.Səmədzadə [43], R.P.Sultanova [120] və digərlərinin əsərlərində tapmışdır.

Problemin nəzəri-metodoloji məsələləri, maliyyə dayanıqlığı, onun göstəricilər sistemi və təyin edilməsi üsulları, potensialın qiymətləndirilməsi, müəssisələrin fəaliyyətinin diaqnostikası və idarə edilməsi xarici ölkə tədqiqatçılarının əsərlərində öz əksini tapmışdır. Beləki, müəssisənin maliyyə-iqtisadi fəaliyyətinin təhlili: Abryutina M.C. [54], Kovalyev V.V. [86-91], Savitskaya Q.V. [115, 116], Çeçevitsına L.N. [123]; maliyyə təhlili: Bank V.R. [60], Boçarov V.V. [66, 67], Efimova O.V. [80], Şeremet A.D. [125, 126]; dayanıqlı inkişaf və maliyyə dayanıqlığı: Bobılev S.N. [63], Bobırik M. [64], Bratkova O.V. [68], Bryantseva İ.V. [69], Qorbunova N.A., Jivaeva M.A. [77], Konoplyanik T.M. [92], Levşin Q.V. [98], Losev V. [99]; müəssisə potensialı və onun maliyyə vəziyyətinin diaqnostikası: Valeeva Y.S. [70], Voronina V.M. [72], Meltsas E. [106], Stoyakov E.B. [119], Şerbakova N.F. [128]; rəqabətqabiliyyətlilik: Qorbaşko E.A. [76], Kenşenbaum V.Y. [84], Maykl Porter [102, 103], Pastuşko A.S. [112], Fatxutdinov R.A. [122] və digərlərinin əsərlərində tədqiq edilmiş və bir sıra məqamları ilə maraq doğururlar.

Bununla belə, neft-mədən avadanlıqları istehsal edən müəssisələrdə maliyyə dayanıqlığı, onun nəzəri-metodoloji əsasları, müəssisənin maliyyə təhlükəsizliyi və idarəetmə məsələləri, müəssisənin potensialı və əmlak kompleksinin qiymətləndirilməsi, maliyyə dayanıqlığına təsir edən amillər, məhsul həcminin maliyyə dayanıqlığı ilə əlaqəsi və onun qiymətləndirilməsi, əsas və dövriyyə kapitalından istifadənin tədqiqi, maliyyə dayanıqlığı əmsallarının hesablanması alqoritmi, üç amilli maliyyə modeli və müəssisənin müflis olmasının müəyyənləşdirilməsi məsələlərinin tədqiqində bir sıra boşluqlar vardır. Dissertasiya işi məhz bu problemlərin həllinə həsr olunmuşdur ki, bu da mövzunun aktuallığını şərtləndirir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat obyektini neft sənayesinin inkişafında mühüm əhəmiyyət kəsb edən neft-mədən avadanlıqları və polad burazlar istehsal edən "Bakı Neft-Mədən Avadanlıqları", "Neftqazmaş" və "Bakı Polad Burazlar" açıq səhmdar cəmiyyətləri (ASC) təşkil edir. Tədqiqatın predmetini isə göstərilən ASC-lərin maliyyə vəziyyəti və maliyyə dayanıqlığı məsələləri, istehsal potensialından istifadə, müflisolma vəziyyətinin

qiymətləndirilməsinin metodiki təminatı təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi müəssisələrin maliyyə vəziyyəti və dayanıqlığının təhlili metodlarının, onu nəzəri-metodoloji aspektlərinin, maliyyə dayanıqlığının konseptual əsaslarının araşdırılması ilə idarəetmə qərarlarının qəbulu və onun əsasında təcrübi təklif və nəticələrin işlənməsindən ibarətdir.

Bu məqsədin həyata keçirilməsi üçün dissertasiya işinin yerinə yetirilməsində aşağıdakı vəzifələr qoyulmuş və ardıcıllıqla həll edilmişdir:

– müəssisənin maliyyə dayanıqlığının əsası kimi rəqabətqabiliyyətliliyin araşdırılması;

– maliyyə dayanıqlığının, idarəetmənin və maliyyə təhlükəsizliyinin nəzəri-metodoloji əsaslarının tədqiq edilməsi;

– maliyyə dayanıqlığının təhlili və idarə edilməsinin xüsusiyyətlərinin araşdırılması;

– müəssisənin potensialı və əmlak kompleksinin mövcud vəziyyətinin qiymətləndirilməsi;

– müəssisənin aktivləri, maliyyə dayanıqlığına təsir edən amillərin aşkar edilməsi, maliyyə dayanıqlığının idarəetmə mexanizminin müəyyən edilməsi;

– maliyyə dayanıqlığı baxımından reallaşdırılmış məhsul həcminin ona təsir edən amillərdən asılılığının tədqiqi;

– əsas və dövriyyə kapitalından istifadənin araşdırılması;

– müəssisənin əmlak kompleksindən istifadənin tədqiqi, maliyyə dayanıqlığı əmsallarının təyin edilməsi, müəssisənin müflis olma vəziyyətinin tədqiq olunması.

**Tədqiqat metodları.** Tədqiqat işinin həyata keçirilməsində statistikanın metodları: müqayisə, qruplaşdırma, analitik, ümumiləşdirmə, sistemli təhlil, qrafiki üsul, ehtimal nəzəriyyəsi, riyazi-statistik modelləşdirmə üsullarındanm istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– maliyyə dayanıqlığının qiymətləndirilməsinə dair yanaşmaların idarəetmə qərarlarının qəbul edilməsində kifayət etməməsinin ümumiləşdirilməsi, müəssisənin maliyyə dayanıqlığının idarə edilməsi və onların xüsusiyyətlərinin aşkarlanması zərurəti meydana çıxır;

– “potensial” məfhumunun təkcə istehsal imkanlarını xarakterizə etməməsi, onun kafiliyi səciyyəsinin verilməsi və “iqtisadi potensialın” mühüm olmasının əsaslandırılması, “iqtisadi potensial” məfhumuna dair yanaşmaların ümumiləşdirilməsinə ehtiyac yaranmışdır;

– maliyyə dayanıqlığının xarici və daxili amilləri, balansın mütləq likvidlik şərtlərinin əsaslandırılması, müəssisənin istehsal-təsərrüfat fəaliyyətində qarşılıqlı əlaqədə olan amillərin araşdırılması və onların qruplaşdırılması mövcud tələblər baxımından vacib hesab edilir;

– neft-mədən avadanlıqları və polad burazlar istehsal edən ASC-lərdə reallaşdırılmış məhsulla ona təsir edən amillər arasında asılılığın müəyyən edilməsi zərurəti yaranmışdır;

– müəssisədə əsas və dövriyyə kapitalı, onlardan istifadənin yaxşılaşdırılması məqsədilə amillərin seçilməsi və asılılığın araşdırılması idarəetmə mexanizmi kimi qiymətləndirilməlidir;

– maliyyə dayanıqlığının əsası olan əmlakdan istifadəni xarakterizə edən fondverimi göstəricisinə təsir edən amillərin müəyyən edilməsi və onların tədqiqi, maliyyə dayanıqlığı əmsallarının və balansın likvidliyinin qiymətləndirilməsi, üç amilli maliyyə modelinin və beş amilli Altman modelinin işlənməsi idarəetmədə zəruri şərtlərdən hesab edilir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliklərinə aşağıdakılar aiddir:

– maliyyə dayanıqlığının maliyyə təhlükəsizliyinin tərkib hissəsi olması əsaslandırılmış, maliyyə təhlükəsizliyi səviyyəsinin 8 istiqamət üzrə sxemi işlənilmişdir (1.2);

– maliyyə dayanıqlığı baxımından reallaşdırılmış məhsulla ona təsir edən amillər arasında çox amilli korrelyasiya-reqressiya modelləri alınmış, onların iqtisadi interpretasiyası verilmişdir (3.1);

– neft-mədən avadanlıqları və polad burazlar istehsal edən ASC-lərdə əsas və dövriyyə kapitalından istifadənin yaxşılaşdırılması əsaslandırılmış, çox amilli reqressiya modelləri təklif edilmiş, statistik meyarlarla adekvatlığı müəyyənləşdirilmişdir (3.2);

– neft-mədən avadanlıqları və polad burazlar istehsal edən ASC-lərdə maliyyə dayanıqlığının tərkib hissəsi olan əsas fondlardan

istifadəni xarakterizə edən fondverimi göstəricisinin riyazi-statistik modelləri alınmış, iqtisadi interpretasiyası verilmişdir (3.3);

– maliyyə dayanıqlığının mütləq və nisbi göstəricilərlə qiymətləndirilməsi alqoritmi, balansın likvidliyinin qiymətləndirilməsi alqoritmi işlənmiş və faktiki rəqəmlərlə reallaşdırılmışdır (3.3);

– tədqiq edilən ASC-lərdə maliyyə dayanıqlığının qiymətləndirilməsinin üç amilli maliyyə modelləri və müəssisələrin müflisolma məsələsində Altmanın beş amilli modeli işlənmişdir (3.3).

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində maliyyə dayanıqlığının nəzəri-metodoloji aspektləri öyrənilmiş və ümumiləşdirilmiş, onun əsaslandırılmış nəticə və təkliflərindən istifadə tədqiq edilən ASC-lərdə bu problemlə bağlı məsələlərin həllində istifadə edilə bilər.

Bununla belə, dissertasiya işinin nəticələrindən tədqiq edilən ASC-lərdə istehsal-təsərrüfat fəaliyyətini xarakterizə edən göstəricilərin təhlilində, müvafiq proqnoz və layihələrin hazırlanmasında, həmçinin ali məktəblərdə “Maliyyə”, “Maliyyə təhlili” və s. fənlərin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəalarına dair 11 jurnal məqaləsi və 4 konfrans materialı dərc edilmişdir. 11 jurnal məqaləsindən 4-ü, 4 konfrans materialından isə 2-si xaricdə nəşr edilmişdir.

İşdə əsaslandırılan əsas müddəalar respublika və beynəlxalq səviyyəli elmi və elmi-praktiki konfranslarda məruzə edilmişdir. Bunlardan “Maliyyə dayanıqlığının qiymətləndirilməsi” (Sumqayıt, 2019), “Məhsulun rəqabətqabiliyyətinə dair” (Bakı, 2019), “Mathematical-statistical analysis of products sold in enterprises” (Poland, Warsaw, 2021), “Analysis of the production profitability of machine works with the application of economic and mathematical method” (Toronto, Canada, 2021) adlı tezisləri göstərmək olar.

Tədqiqat dövründə yerli və xarici jurnallarda dərc olunmuş aşağıdakı elmi məqalələri qeyd etmək olar: “Maliyyə dayanıqlığının nəzəri məsələləri” (Bakı, 2019), “Azərbaycanın neft-qaz kompleksində investisiya qoyuluşunun əsas istiqamətləri” (Bakı, 2019), “Sənaye sahələrinin maliyyə dayanıqlığının problemləri” (Bakı, 2019), “Neftmaşınqayırma müəssisənin fəaliyyətində maliyyə

təhlilinin rolu" (Bakı, 2020), "Neft-mədən avadanlıqlarına texniki xidmətin idarə edilməsi" (Bakı, 2020), "Повышение эффективности использования основного капитала в нефтяном машиностроении" (Москва, 2021), "Assessment Of The Impact Of Economic Growth In The Processing Industry In Azerbaijan" (Moscow, 2021), "Improving the use of fixed and working capital in the enterprise" (Moscow, 2021), "Neftmaşınqayırma ASC-də reallaşdırılmış məhsulla əsas və dövriyyə kapitalı arasındakı asılılığın riyazi-statistik modelləşdrilməsi" (Bakı, 2022), "Innovative, economic and marketing determinants of financial security and sustainability of business" (Ukraine, 2022), "Neftmaşınqayırma müəssisələrində reallaşdırılmış məhsulun səviyyəsinə təsir edən amillər" (Bakı, 2022).

Dissertasiyanın nəticələrinin "Neftqazmaş" ASC-də tətbiqi barədə arayış alınmışdır (arayış № 4, 17.11.2021-ci il).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiyanın strukturu girişdən, üç fəsildən, səkkiz paraqrafdan, nəticə və ədəbiyyat siyahısından ibarət olmaqla ümumi həcmi 252732 işarə təşkil edir. Giriş (14724 işarə), I fəsil (47406 işarə), II fəsil (68333 işarə), III fəsil (59026 işarə), nəticə (13226 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (18061 işarə). Qrafik, cədvəl, diaqram və istifadə edilmiş ədəbiyyat siyahısı nəzərə alınmadan dissertasiya işinin həcmi 202715 işarə təşkil edir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiya və tətbiqi məsələləri öz əksini tapmışdır.

Dissertasiya işinin **"Maliyyə dayanıqlığının qiymətləndirilməsi və idarə edilməsinin nəzəri-metodoloji aspektləri"** adlanan birinci

fəslində rəqabətqabiliyyətliliyin müəssisənin dayanıqlı inkişafının əsası olması, maliyyə dayanıqlığının, idarəetmənin və müəssisənin maliyyə təhlükəsizliyinin nəzəri-metodoloji əsasları tədqiq edilmişdir.

İşdə rəqabətqabiliyyətlilik, onun yaranma səbəbləri, situasiyaları geniş şərh edilmiş, göstərilmişdir ki, məhsulun rəqabətqabiliyyətli olması üçün o, öz funksiyalarının mövcud-analojidən daha yaxşı yerinə yetirməlidir. Rəqabətqabiliyyətliliyin iqtisadi ədəbiyyatda öyrənilməsi, onların bu məsələyə yanaşmaları bu bölmədə sərf-nəzər edilmiş, qeyd olunmuşdur ki, rəqabətqabiliyyətlilik təsadüfən də ola bilər.

Göstərilmişdir ki, məhsulun keyfiyyəti problemi bütövlükdə iqtisadiyyatın tələbatı üçün çox vacibdir. Bu mənada hər hansı müəssisənin dayanıqlı inkişafı baxımından rəqabətqabiliyyətli məhsul istehsalı, keyfiyyət kateqoriyasına başqa prizmadan baxılmasını tələb edir.

Dissertasiyada rəqabət, bu kateqoriyaya yanaşmalar, onun növləri və s. məsələlər geniş şərh olunmuşdur. Həmçinin bu fəsildə "dayanıqlıq", "dayanıqlı inkişaf" məsələləri, onlara yanaşmalar da tədqiq edilmişdir.

1. Bazar iqtisadi münasibətləri şəraitində bu və ya digər idarəetmə qərarlarının qəbul edilməsində bütövlükdə iqtisadi dayanıqlıq, xüsusi halda maliyyə dayanıqlığının öyrənilməsi, onların qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. İstehsal-təsərrüfat prosesində müəssisələr müxtəlif adda material, yanacaq, əmək, maliyyə, informasiya resursları istifadə edir ki, bütün bunlar dayanıqlıq kateqoriyasının tədqiqini aktual edir. İstehsal-təsərrüfat, istehsal-kommersiya fəaliyyətində bu və ya digər hadisə, proseslərin tədqiqi və təhlili, onların inkişaf qanunauyğunluqlarının aşkara çıxarılması, bu sahədə nəzəri-metodoloji məsələlərin ümumiləşdirilməsini zəruri edir ki, bu da müəssisənin maliyyə dayanıqlığının hər tərəfli tədqiqini şərtləndirir. İqtisadi ədəbiyyatda "maliyyə dayanıqlığı" məfhumuna aid yanaşmalarda fərqlilik mövcuddur. Bəziləri bunu uzunmüddətli ödəmə qabiliyyəti; digərləri dövriyyə vəsaitlərinin rasional quruluşu, onlardan istifadə kimi; digər biriləri isə öz vəsaitləri və ya resurslarının səmərəli istifadəsi kimi müəyyən edirlər. Belə ki. B.P Bank hesab edir ki,*" müəssisənini maliyyə dayanıqlığı – bu onun elə vəziyyətidir ki, maliyyə resursları, onların bölüşdürülməsi və istifadəsi, buraxıla bilən*

*risk şəraitində fasiləsiz fəaliyyəti, rentabelliyi və baxılan dövrdə öhdəliklərlə hesablaşmağı təmin edir”[1]*. A.D.Şeremetə görə*, “maliyyə dayanıqlığı balansın qənaətbəxş quruluşunu xarakterizə edir və təsərrüfat fəaliyyətinin maliyyə nəticələrini əks etdirir. Öz və avans edilmiş kapitalın nisbəti təşkilatın muxtariyyatına işarə edir, bazar şəraitində onun maliyyə dayanıqlığını göstərir”[2]*. A.Qaluşkina qeyd edir ki, *“bütün təyin etmələri ümumiləşdirsək, onda maliyyə dayanıqlığı müəssisənin kredit qabiliyyəti və ödəmə qabiliyyəti ilə, həmçinin minimal risklə daimi olaraq mənfəət və kapitalın artımı ilə ifadə olunur”[3]*. N.P.Lyubuşin maliyyə dayanıglığına verdiyi tərifə görə *“maliyyə dayanıglığı mütləq və nisbi göstəricilər sistemi ilə xarakterizə olunur. Maddi dövriyyə vəsaitlərinin (ehtiyat və xərc), öz və mənbələr hesabına formalaşmış borc kəmiyyətinə olan nisbət maliyyə dayanıqlığını müəyyən edir. Mənbələr hesabına formalaşmış ehtiyat və xərclər maliyyə dayanıqlığının məzmununu əmələ gətirir, ödəmə qabiliyyəti isə onun xarici ifadəsi kimi görsənir”[4]*.

Araşdırmamız göstərir ki, iqtisadi ədəbiyyatda maliyyə dayanıqlığı məfhumuna dair vahid yanaşma yoxdur. Bunu nəzərə alaraq tərəfimizdən maliyyə dayanıqlığına aşağıdakı iddiaçı yanaşması təklif edilmişdir: “Maliyyə dayanıqlığı müəssisənin maliyyə-iqtisadi fəaliyyətinin əsas göstəricisidir, buraxıla bilən risk səviyyəsində özünün ödəmə qabiliyyəti və kredit qabiliyyətini saxlamaqla, öz vəsaitləri hesabına inkişaf etdirməklə, dəyişən iqtisadi mühitdə müəssisənin fəaliyyətini vaxtında və tam həcmdə maliyyələşdirmə qabiliyyətidir ki, bu da operativ, cari və strateji plana müvafiq olaraq

---

[1] Банк В.Р. Финансовый анализ, уч. Пособие / В.Р. Банк, Л.В. Тараскина. – Москва: ТК Велби, изд-во Проспект, – 2006, – 344 с. с.91

[2] Шеремет А.Д. Методика финансового анализа / В.Д. Шеремет, Е.В. Негашев. – Москва: ИНФРА-М, – 2001, – 172 с. с.124

[3] Галушкина А. Оценка финансовой устойчивости промышленного предприятия // - Москва: Проблемы теории и практики управления. – 2010, № 20, – с.54-58. с.55

[4] Любушин Н.П. Анализ методов и моделей оценки финансовой устойчивости организации // – Москва: Финансовая устойчивость организации, – 2010, № 1, – с. 4-11. с.5

geniş təkrar istehsalı təmin edir, həmçinin ona həvalə edilmiş sosial-iqtisadi funksiyanın yerinə yetirilməsinə kömək edir".

Bununla belə maliyyə dayanıqlığı müəssisənin bütün təsərrüfat fəaliyyəti prosesində formalaşır. Bütövlükdə maliyyə dayanıqlığı hər hansı vaxt anında müəssisənin maliyyə vəsaitlərindən nə qədər dolğun istifadə etmişdir? Sualına cavabla xarakterizə olunur. Bu mənada müəssisənin maliyyə vəziyyətinin təhlili zamanı müxtəlif göstəricilər sistemindən istifadə edilməsi qeyd olunmalıdır. Həmin göstəricilər dövretmə prosesində kapitalın vəziyyəti kimi dəyərləndirilməklə, müəssisənin öz fəaliyyətini maliyyələşdirmək qabiliyyətinin olub-olmamasını qiymətləndirir.

Maliyyə dayanıqlığının qiymətləndirilməsində həm mütləq, həm də nisbi göstəricilərdən istifadə olunur. İqtisadi ədəbiyyatda bütün sənaye sahələri üçün bu əmsalların normativ kəmiyyətinin eyni cür olması təklif edilir. Lakin hər bir sənaye sahəsi öz spesifik xüsusiyyətinə (likvidlik, rentabellik, dövretmə və s.) malikdir və həmin göstəricilər müəyyən diapazonda dəyişirlər. Digər tərəfdən, Azərbaycan Respublikasının iqtisadiyyatı da dünya iqtisadiyyatındakı təsərrüfatçılıqdan bu və ya digər dərəcədə fərqlənir. Bu mənada maliyyə dayanıqlığı əmsallarının normativ qiymətlərinin Azərbaycan Respublikası sənaye müəssisələrinə tətbiqi həmişə yetərli olmur.

Maliyyə dayanıqlığı və onun qiymətləndirilməsinə dair mövcud yanaşmalar, bu mənada idarəetmə qərarları qəbul etmək üçün vacibdirlər, lakin kifayət etmirlər. Baxılan yanaşmalar maliyyə dayanıqlığının qiymətləndirilməsi sahəsində orientir və bütövlükdə ekspress-təhlili rolunu oynaya bilər.

Müəssisədə maliyyə dayanıqlığı, onu xarakterizə edən göstəricilər haqqında mühüm informasiyanın yığılması, bu sahədə qərar qəbul etmədə mühüm materialdır. Qəbul edilən qərarın adekvatlığı, istifadə olunan informasıyanın dəqiqliyindən, reprezentativliyindən çox asılıdır. Bununla əlaqədar olaraq qeyd edək ki, maliyyə menecmenti aşağıdakı konsepsiyalara: pulun müvəqqəti dəyərə malik olması, pul axınları, maliyyə riski, kapitalın dəyəri, səmərəli bazar və s. əsaslanır.

Müəssisədə maliyyə fəaliyyəti, onun idarə edilməsi aşağıdakı istiqamətlərin qarşılıqlı əlaqəsi nəticəsində baş verir: maliyyə təhlili və planlaşdırma; müəssisənin maliyyə resursları ilə təminatı

(vəsaitlərin mənbələrinin idarə edilməsi); maliyyə resurslarının bölüşdürülməsi (investisiya siyasəti).

Bu fəsildə həmçinin müəssisənin maliyyə təhlükəsizliyi məsələləri tədqiq edilmiş, tərəfimizdən maliyyə təhlükəsizliyi səviyyələrinin sxemi təklif edilmiş, dissertasiya işində onun açıqlanması verilmişdir.




**Sxem 1. Maliyyə təhlükəsizliyi səviyyələri**
*Mənbə: Sxem müəllif tərəfindən tərtib edilmişdir*

Göstərilmişdir ki, müəssisənin maliyyə sabitliyi və ya maliyyə təhlükəsizliyinə çoxlu sayda daxili və xarici amillər təsir edir ki, onların da aşkar edilərək təhlil edilməsi, sistemləşdirilməsi və ümumiləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Dissertasiyanın **“Müəssisənin maliyyə dayanıqlığı, onun idarə edilməsinin qiymətləndirilməsi və təhlili”** adlanan ikinci fəslində müəssisənin maliyyə nəticələrinin təhlilinə yanaşmalar və cari

fəaliyyətin idarə edilməsi; müəssisənin potensialı, əmlak kompleksinin qiymətləndirilməsi, onun maliyyə dayanıqlığı; müəssisənin aktivləri, maliyyə dayanıqlığına təsir edən amillər, maliyyə dayanıqlığının idarəetmə mexanizminin təhlili tədqiq edilmişdir.

Məlumdur ki, müəssisənin rəqabətqabiliyyəti, onun sərəncamında olan resursların hərəkətinin düzgün istiqamətlənməsindən çox asılıdır. Bazar münasibətləri şəraitində təhlilin, o cümlədən maliyyə təhlilinin aparılması, müəssisənin rəqabət üstünlüyü, bazar seqmentindəki yeri haqqında məlumat almağa imkan verir. Bu zaman onun xarici və daxili fəaliyyət mühitinin tədqiqi də mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə dissertasiyada təhlil, onun aparılması mərhələlərinə dair iqtisadi ədəbiyyatdakı fikirlər sərf-nəzər edilərək tədqiq edilmişdir.

Bu fəsildə tədqiqat obyektimiz olan neft-mədən avadanlıqları istehsal edən "Neftqazmaş", "Bakı Neft-Mədən Avadanlıqları" və "Bakı Polad Burazlar" ASC-ləri üzrə, onların fəaliyyətini xarakterizə edən göstəricilər təhlil edilmiş, hər bir ASC üzrə "rentabellik" göstəricisinin müxtəlif modifikasiyalarının hesabatı tərəfimizdən aparılmışdır.

Cədvəl 1 də "Neftqazmaş" ASC-də rentabelliyin hesablanması göstərilmişdir.

Cədvəl 1-dən görünür ki, baxılan dövrdə məhsulun (işin, xidmətin) reallaşdırılmasından daxil olan mədaxildə artım (2020-ci il) və azalma müşahidə olunur. Bununla belə, 2018-ci il ilə müqayisədə 2022-ci ildə reallaşdırmadan mədaxil 3653,62 min man (və ya 53,20%) azalmışdır. Başqa şərtlərlə yanaşı, bu COVİD-19-un mənfi təsiri ilə əlaqədar olmuşdur.

Rentabellik göstəricisinin hesablanması digər ASC-lər üçün də yerinə yetirilmişdir.

Adətən müəssisənin imkanlarını, o cümlədən maliyyə imkanlarını xarakterizə etmək üçün "potensial" məfhumundan istifadə olunur. Məhz bu baxımdan bu fəsildə tərəfimizdən "potensial" məfhumunun təkcə istehsal imkanlarını xarakterizə etməməsi, onun kafiliyi səviyyəsinin verilməsi və "iqtisadi potensialın" mühüm olması tərəfimizdən əsaslandırılmış, "potensial" məfhumuna dair yanaşmalar ümumiləşdirilmiş və bu kateqoriyaya iddiaçı yanaşması təklif edilmişdir.

**Cədvəl 1.**

**"Neftqazmaş" ASC-də rentabelliyin təhlili**

| Sıra №-si | Göstəricilər | Ölçü vahidi | İllər | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
| 1 | Balans mənfəəti | min man. | 2270,7 | 3542,9 | 4810,9 | 55,5 | 405,4 |
| 2 | Xalis mənfəət | -″- | 992,63 | 1034,32 | 1148,72 | 44,4 | 324,3 |
| 3 | Cari aktivlərin orta kəmiyyəti | -″- | 1992,43 | 2143,62 | 2286,99 | 2737,0 | 1366,7 |
| 4 | Aktivlərin orta kəmiyyəti | -″- | 2186,9 | 2275,4 | 2495,3 | 2961,8 | 2025,9 |
| 5 | Öz mənbələrinin orta kəmiyyəti | -″- | 809,3 | 810,5 | 905,0 | 2961,8 | 2025,9 |
| 6 | Qısamüddətli öhdəliklərin orta kəmiyyəti | -″- | 35,44 | 38,96 | 40,15 | 1347,5 | 1360,55 |
| 7 | Məhsulun (iş, xidmət) reallaşdırılmasından mədaxil | -″- | 6867,12 | 8853,21 | 10907,12 | 1681,8 | 3213,5 |
| 8 | Reallaşdırılmış məhsul istehsalına xərclər | -″- | 4596,42 | 5310,31 | 6096,22 | 1626,4 | 2808,2 |
| 9 | Rentabellik:<br>- aktivlərin (sətir 2/sət 4)·100 | %<br>-″- | 45,4 | 45,5 | 46,0 | 1,5 | 16,0 |
| | - cari aktivlərin (sət 2/sət 3)·100 | -″- | 49,8 | 48,3 | 50,2 | 1,62 | 23,7 |
| | - reallaşdırılmış məhsulun (sət 2/sət 7)·100 | -″- | 14,5 | 11,7 | 10,5 | 2,64 | 10,1 |
| | xərclərin (sət 2/sət 8)·100 | -″- | 21,6 | 19,5 | 18,8 | 2,73 | 11,5 |

*Mənbə: Cədvəl "Neftqazmaş" ASC-nin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Belə ki, fikrimizcə, "İqtisadi potensial" ümumiləşdirici göstərici olmaqla özündə aşağıdakıları birləşdirir. "İqtisadi potensial – bu, istehsal, maliyyə, bazar potensialını birləşdirməklə, texniki-texnoloji,

innovasiya, təbii resurs, əmək resursları, təşkilatı və informasiya potensialını; maliyyə resurslarının cəlb edilməsi, investisiya və mənfəətin alınması potensialını; istehsal amillərinin cəlb edilməsi və məhsulun reallaşdırılması potensialını" özündə cəm edir. "İqtisadi potensiala" verdiyimiz bu tərif, müəssisənin dayanıqlığının inkişafı baxımından, onun bu istiqamətdə atacağı addımları nəzərdə tutur.

Tədqiq etdiyimiz hər üç ASC üçün, onların potensialını xarakterizə edən bəzi göstəricilərin təhlili yerinə yetirilmişdir. Burada isə ancaq "Neftqazmaş" ASC-i üçün bu göstəricilər verilmişdir (cədvəl 2).

**Cədvəl 2.**

**"Neftqazmaş" ASC-nin potensialı xarakterizə edən bəzi göstəricilər**

| Sıra №-si | Məhsul istehsalı, min man. | İlin sonuna əsas fondların dəyəri, min man. | Dövriyyə fondları min man. | Əsas və dövriyyə fondlarının cəmi, min man. | İşçilər sayı, nəfər | Əmək məhsuldarlığı min man./nəfər | Fondverimi min man. / man. |
|---|---|---|---|---|---|---|---|
| 2016 | 3113,46 | 915,1 | 2066,42 | 2981,52 | 146 | 21,33 | 1,04 |
| 2017 | 2857,96 | 827,7 | 2098,31 | 2926,01 | 117 | 24,43 | 0,98 |
| 2018 | 2659,99 | 822,9 | 2152,5 | 2975,4 | 119 | 22,35 | 0,89 |
| 2019 | 4296,93 | 753,3 | 2182,8 | 2936,1 | 130 | 33,05 | 1,46 |
| 2020 | 4170,05 | 736,8 | 1232,3 | 1969,1 | 178 | 23,43 | 2,12 |
| 2021 | 1681,8 | 3213,5 | 1602,8 | 4816,3 | 113 | 14,88 | 0,35 |
| 2022 | 3213,5 | 1550,7 | 1106,6 | 2657,3 | 106 | 30,32 | 1,21 |

*Mənbə: Cədvəl "Neftqazmaş" ASC-nin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəl 2-dən görünür ki, tədqiq olunan dövrdə baxılan ASC üzrə məhsul həcmi 3,21% (və ya 100,04 min man) artmışdır. Baxılan dövrdə işçilər sayı 40 nəfər azalmışdır. Bununla belə həm əmək məhsuldarlığı, həm də fondverimi göstəricilərində artım baş vermişdir. Bütün bunlar tədqiq olunan ASC-də əsas fondlardan səmərəli istifadəni xarakterizə edir.

Baxılan dövrdə tədqiq edilən ASC-lərin potensialını xarakterizə edən bəzi göstəricilərin təhlili göstərdi ki, məhsul istehsalı həcmi 3,21% artmış, müəssisənin əmlakının əsasını təşkil edən əsas fondlar 69,5% artmışdır (“Neftqazmaş” ASC). Bu onunla izah edilir ki, baxılan dövrdə (2016-2022) yeni fondların istifadəyə verilməsi lazımi səviyyədə olmuşdur. İqtisadi potensialın tərkib hissəsi olan işçilərin sayı həmin dövrdə 40 nəfər (və ya 27,4%) azalmışdır. Baxılan dövrdə, əsas fondların səmərəli istifadəsini xarakterizə edən fondverimi göstəricisi 1,04-1,21 mln. man/man arasında dəyişmişdir.

Belə təhlil Bakı Neft-Mədən Avadanlıqları (BNMA) və Bakı Polad Burazlar (BPB) ASC-lər üçün də həyata keçirilmişdir. “BNMA” ASC-də bu dövrdə məhsul istehsalı 1,1% artmış, əsas fondların dəyəri 39,9% azalmış, dövriyyə fondları 5,08% və işçilərin sayı 11,8% artmışdır.

Təhlil dövründə potensialı xarakterizə edən göstəricilər “BPB” ASC-də artıb-azalmışdır. Belə ki bu dövrdə məhsul istehsalı 98,4% artmış, əsas fondlar 55,8% azalmışdır, dövriyyə fondları 27,1 dəfə artmış, işçilərin sayı isə 41,7% azalmışdır.

Tədqiq edilən hər üç ASC üzrə əsas fondların dəyərini aşağıdakı qrafikdən aydın görmək olar (qrafik 1).




| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| sıra 1 | 915,1 | 827,7 | 822,9 | 753,3 | 736,8 | 3213,5 | 1550,7 |
| sıra 2 | 634,5 | 607,1 | 568,4 | 506,7 | 455,5 | 426,9 | 381,3 |
| sıra 3 | 20,15 | 17,7 | 14 | 12,7 | 11,6 | 9,6 | 8,9 |

**Qrafik 1. Əsas fondların ilin axırına dəyəri: 1 – “Neftqazmaş” ASC; 2 – “BNMA” ASC; 3 – “BPB” ASC**

***Mənbə:*** *Qrafik müəllif tərəfindən tərtib edilmişdir.*

Qrafik 1-dən göründüyü kimi təhlil dövründə "BNMA" və "BPB" ASC-lərdə əsas fondların dəyərində azalma olsa da, "Neftqazmaş" ASC-də isə əksinə artma müşahidə edilmişdir. Bunun başlıca səbəbi isə həmin ASC-nin əsas fondlarının tərkibində iş maşınlarının dəyərinin 2016-cı ildəki 182,0 min manatdan 2020-ci ildə 74,8 min manata qədər azalsa da, 2021-ci ildə bu göstərici 2580,8 min manata qədər artmış, 2022-ci ildə isə 963,7 min manat təşkil etmişdir.

Bu fəsildə həmçinin maliyyə dayanıqlığının xarici və daxili amilləri, balansın mütləq likvidlik şərtlərinin əsaslandırılması, müəssisənin istehsal-təsərrüfat fəaliyyətində qarşılıqlı əlaqədə olan amillərin mövcudluğu və onların qruplaşdirilməsı vacibliyi əsaslandırılmışdır.

Müəssisənin daxili dayanıqlığı məhsul istehsalı və reallaşdırılmasının elə vəziyyətidir ki, bu onun fəaliyyətinin sabit yüksək zirvəsini təmin edir. Xarici dayanıqlıq isə müəssisənin xarici mühitinin sabitliyi ilə müəyyən olunur.

Bəzi növ aktivlər pul vəsaitinə tez, bəziləri isə gec çevrilir. Bütün bunlar isə müəssisənin aktivlərinin likvidlik dərəcəsinə görə gruplaşdırılması vacibliyini yaradır. Aktiv və passivlər aşağıdakı əlamətlərə görə sistemləşdirilir: likvidliyin (aktivlərin) azalma dərəcəsinə görə; öhdəliklərin ödənilməsinin tezliyi dərəcəsinə görə.

Müəssisələrin aktivləri bir neçə qrupa bölünür: ən çox likvid aktivlər (A1); tez reallaşdırılan aktivlər (A2); gec reallaşdırılan aktivlər (A3); çətin reallaşdırılan aktivlər (A4).

Öhdəliklərin ödəmə müddətinin artması dərəcəsinə görə passivlər aşağıdakı kimi qruplaşdırılır: ən təcili öhdəliklər (P1); qısamüddətli passivlər (P2); uzunmüddətli passivlər (P3); sabit passivlər (P4).

Məlumdur ki, aktiv və passivlərin təsnifatı, onların müqayisəsi balansın likvidliyinin qiymətləndirilməsinə təkan verir.

Balansın likvidliyi – müəssisənin öhdəliklərinin ödənməsi dərəcəsidir. Bu zaman pul vəsaitlərinə çevrilmə vaxtı, öhdəliklərin ödəmə vaxtına uyğun gəlir.

Balansın mütləq likvid olması üçün aşağıdakı şərtlərin ödənməsi vacibdir: $A1 \geq P1$; $A2 \geq P2$; $A3 \geq P3$; $A4 \leq P4$. Ümumilikdə müəssisənin maliyyə dayanıqlığında mütləq likvidlik şərti belədir: $A1 \geq P1$; $A2 \geq P2$; $A3 \geq P3$; $A4 \leq P4$.

Əgər balansın aktivlərinin birinci üç qrupunun cəmi, balansın passivinin birinci üç qrupunun cəmindən böyükdürsə (bərabərdirsə), onda dördüncü qrupun passivləri dördüncü qrupun aktivlərini ödəyəcəkdir (bərabər olacaqdır).

Bu şərtləri riyazi olaraq belə yazmaq olar:

(A1+A2+A3) ≥ (P1+P2+P3); onda A4≤P4.

Qeyd edək ki, A4≤P4 şərti dərin iqtisadi məna kəsb edir: nə vaxt sabit passivlər çətin reallaşdırılan aktivləri ötürsə, onda ödəmə qabiliyyətinin vacib şərtləri, yəni müəssisədə öz dövriyyə vəsaitlərinin mövcudluğu istehsal prosesinin fasiləsizliyini təmin edir. Sabit passivlər çətin reallaşdırılan aktivlərə bərabər olanda, bu, müəssisənin öz vəsaitlərinin ödəmə qabiliyyətinin aşağı sərhəddini əks etdirir.

Bu şərtlərdən istifadə edərək dissertasiyanın üçüncü fəslində müəssisənin maliyyə dayanıqlığını xarakterizə edən göstəricilər tədqiq edilmişdir.

Dissertasiyanın **"Maliyyə dayanıqlığının qiymətləndirilməsi və idarə edilməsi sisteminin yaxşılaşdırılması"** adlanan üçüncü fəslində reallaşdırılmış məhsul həcminin qiymətləndirilməsi; tədqiq edilən ASC-lərdə əsas və dövriyyə kapitalından istifadənin yaxşılaşdırılması; müəssisənin əmlak kompleksindən istifadə, maliyyə dayanıqlığı əmsallarının hesablanma alqoritminin işlənməsi, reallaşdırılması və idarə edilməsi məsələləri tədqiq olunmuşdur.

Göstərdik ki, müəssisənin maliyyə dayanıqlığına daxili və xarici amillər təsir edir. Daxili amillərin içərisində məhsulun quruluşu və onun ödəmə qabiliyyətli tələbdə payı, əmlakın vəziyyəti, kəmiyyəti, tərkibi və quruluşu mühüm əhəmiyyət kəsb edir. Bu isə o deməkdir ki, maliyyə dayanıqlığı başqa şərtlərlə yanaşı reallaşdırılmış məhsul həcmindən də bilavasitə asılıdır. Mövcud olan çoxsaylı iqtisadi və sosial məsələlərin həlli, həmçinin əmək məhsuldarlığının artırılması, reallaşdırılmış keyfiyyətli məhsul istehsalının yüksəldilməsi, bir sözlə ictimai istehsalın səmərəliliyinin yaxşılaşdırılması, mühüm əhəmiyyət kəsb edir.

Reallaşdırılan məhsul, ona təsir edən amillər arasında asılılığın araşdırılması çox vacibdir. Belə ki, müəssisədə maliyyə dayanıqlığı başqa şərtlərlə yanaşı, həm də reallaşdırılmış məhsul həcmindən bilavasitə asılıdır. Məsələnin qoyuluşu və həllində ehtimal elementləri

olduğundan, bu asılılıq riyazi-statistikanin korrelyasıya-reqressiya modelləşdirilməsi ilə araşdırılmalıdır. Ədəbiyyatın və aprior təhlil əsasında reallaşdırılmış məhsul (RM) həcminə aşağıdakı amillərin təsir etməsi müəyyənləşdirilmişdir: işçilər sayı (İS) və əmək məhsuldarlığı (ƏM). Reqressiya modelinin qurulmasında adətən sadə xətti modeldən istifadə edilir ki, sonra isə təsir edən amillərin sayı artırılır. Təhlil dövründə alınan model adekvat olmazsa, o zaman daha mürəkkəb əlaqəli modellərə baxılır.

Ümumi halda reqressiya modeli belə formalaşdırılmışdır:

$$Y = a_0 + a_1x_1 + a_2x_2 + \ldots + a_nx_n \quad i = \overline{1,n} \qquad (1)$$

BPB ASC-nin faktiki materiallarının kompüterdə "reqressiya" proqramı ilə emalı zamanı aşağıdakı riyazi-statistik model alınmışdır:

$$RM_1 = 331,8491 + 13,9546\ İS_1 + 24,2246\ ƏM_1 \qquad (2)$$

Alınan modelin statistik göstəriciləri: cəm korrelyasiya əmsalı, determinasiya əmsalı, standart səhv, kvadratlar cəmi (reqressiya, qalıq, cəm), bir sərbəstlik dərəcəsində olan dispersiya (reqressiya,, qalıq), F-Fişer, 95%-lik ehtimalla F-Fişer. F-əhəmiyyət, Styudent əmsalı – t, 95%-lik ehtimalla $t_{krit.}$, p-əhəmiyyət. 95%-lik ehtimalla etibarlıq əmsalları dissertasiya işində verilmiş və təhlil edilmişdir. Qeyd edək ki, tədqiqat işində göstərilən bütün reqressiya modelləri üçün də bu təhlil aparılmışdır. Avtoreferatın həcminə qoyulan məhdudiyyəti nəzərə alaraq, burada modellərin qısa şərhi verilmişdir.

(2) modelinin təhlili göstərir ki, burada cəm korrelyasiya əmsalı R=0,9923, 95%-lik ehtimalla F-Fişerin kritik (cədvəl) əmsalı $F_{krit}$=3,62, bu əmsalın hesabat qiyməti isə $F_{hes}$=64,7265-dir. Daha doğrusu $F_{hes}>F_{krit}$ şərti ödənilir ki, bu da modelin adekvatlığına dəlalət edir. Bununla belə F-əhəmiyyət göstəricisi $F_{əh}>0,05$ şərtini ödəmir, yəni 0,01521<0,05.

t-Styudent kriteriyasının təhlili göstərir ki, əmək məhsuldarlığı amilində $t_{ƏM1\ hes}>t_{krit}$ sərti ödənilir, yəni 4,9618>2,57. Təhlil göstərir ki, 95%-lik ehtimalla etibarlıq əmsalları bütün göstəricilər. $RM_1$ ($İS_1$, $ƏM_1$) üçün min ≤ $RM_1$ ($İS_1$, $ƏM_1$) ≤ max şərti ödənilir. (3)

Belə modellər "Neftqazmaş" və "BPB" ASC-i üçün də alınmış, onların geniş tədqiqi dissertasiyada verilmiş, avtoreferatın həcmi ilə əlaqədar burada göstərilməmişdir.

Modellərin adekvatlığı onların tədqiq edilən ASC-nin fəaliyyətində

istifadə edilməsini mümkün edir.

Tədqiqatda reallaşdırılmış məhsul həcminə təsir edən işçilər sayı (İS), əmək məhsuldarlığı (ƏM) amillərindən başqa, həmçinin əsas fondların dəyəri (ƏF) də daxil edilmişdir. Bu zaman hər bir ASC-i üçün reallaşdırılmış məhsul həcmi uyğun olaraq $RM_4$, $RM_5$, $RM_6$, işçilər sayı ($İS_4$, $İS_5$, $İS_6$), əmək məhsuldarlığı ($ƏM_4$, $ƏM_5$, $ƏM_6$) və əsas fondlar ($ƏF_4$, $ƏF_5$, $ƏF_6$) kimi işarələnmiş, bu göstəricilərin faktiki qiymətləri kompüterə daxil edilmiş və aşağıdakı modellər alınmış, onların göstəriciləri dissertasiyada geniş tədqiq edilmiş, iqtisadi interpretasiya verilmişdir.

"BPB" ASC üçün

$$RM_4 = -240{,}26 + 17{,}59İS_4 + 22{,}89ƏM_4 - 11{,}76ƏF_4 \quad (4)$$

Məsələ burasındadır ki, modellərin təhlili göstərir ki, onlar iqtisadi interpretasiya olunandırlar və tədqiq edilən ASC-nin təcrübi həyatında müvafiq göstəricinin planlaşdırılmasında istifadə oluna bilərlər.

Bu fəsildə həmçinin, müəssisələrin maliyyə məsələlərində əsas və dövriyyə kapitalından istifadə geniş tədqiq olunmuşdur. Məlumdur ki, əsas və dövriyyə kapitalından düzgün istifadə, özünü son nəticədə məhsulun satış həcmində göstərəcəkdir. Bunları nəzərə alaraq bu fəsildə tərəfimizdən satış həcmi (Y) ilə ona təsir edən amillər: əmək məhsuldarlığı ($X_1$), əsas fondlarının dəyərini ($X_2$) və dövriyyə vəsaitlərinin dəyəri ($X_3$) arasında riyazi-statistik əlaqə öyrənilmiş, Eviews tətbiqi proqram paketindən istifadə edərək reqressiya tənlikləri alınmışdır.

"BPB" ASC üçün

$$Y = 9{,}4453X_1 - 7{,}1506X_2 - 1{,}0896X_3 + 240{,}068 \quad (5)$$

Belə modellər digər ASC-lər üçün də alınmışdır.

Alınan modellərin təhlili və iqtisadi interpretasiyası göstərdi ki, müəssisədə əsas və dövriyyə kapitalından səmərəli istifadə, onun dayanıqlığının çox mühüm tərkib hissəsidir. Tədqiq edilən ASC-də maliyyə vəziyyətinin səviyyəsi, həm də əmlak kompleksindən səmərəli istifadədən asılıdır ki, bu da onun maliyyə dayanıqlığı ilə bilavasitə əlaqədardır.

Bunu nəzərə alaraq tədqiq etdiyimiz neft-mədən avadanlıqları istehsal edən ASC-də fondverimi və ona təsir edən amillər arasında çox amilləri reqressiya əlaqələri öyrənilmişdir. Belə ki, fond veriminə

təsir edən amillər əsas və dövriyyə kapitalının həcmi, əmək məhsuldarlığı və işçilər sayı qəbul edilmişdir. Burada bir məqamda ondan ibarətdir ki, fondverimi göstəricisinin hesablanmasında kəsrin məxrəcində təkcə əsas kapital deyil, həmçinin dövriyyə kapitalı da nəzərə alınmışdır. Belə ki, kəsrin surətində məhsulun həcmi göstəricisi nəzərə alınır və burada həcminin dövriyyə kapitalının iştirakı da görsənir. Ancaq kəsrin məxrəcindən dövriyyə kapitalı nəzərə alınmır. Bunları nəzərə alaraq, tədqiqatımızda həm də kəsrin məxrəcində dövriyyə kapitalı nəzərə alınmışdır.

Fondverimi göstəricisinin vaxta görə necə dəyişməsinin öyrənilməsi üçün hər üç ASC üzrə trend modelləri alınmışdır.

"BPB" ASC üçün

$$Y = -1,4629\,X^2 + 8,5231\,X + 8,004;\ R^2 = 0,208 \qquad (6)$$

"Neftqazmaş" ASC üçün

$$Y = 0,15\,X^2 - 0,636\,X + 1,556;\ R^2 = 0,9767 \qquad (7)$$

"BNMA" ASC üçün

$$Y = 0,0257\,X^2 + 0,2973\,X + 0,448;\ R^2 = 0,7826 \qquad (8)$$

Görünür ki, təkcə "BPB" ASC-dən başqa ($R^2$=0,208), digər ASC-lərdə determinasiya əmsalı yüksəkdir.

"BPB" ASC üçün

$$FV_1 = -3,437 - 0,491ƏDK_1 + 0,809ƏM_1 + 0,717İS_1 \qquad (9)$$

Göstərmək lazımdır ki, alınan modellər dissertasiyada təhlil olunmuş, onların adekvatlığı sübut olunmuşdur.

Müəssisənin maliyyə dayanıqlığı bir sıra göstəricilərlə xarakterizə olunur. Maliyyə dayanıqlığı mütləq likvidlik, normal likvidlik, qeyri-dayanıqlı maliyyə vəziyyəti, böhran maliyyə vəziyyəti kimi göstəricilərlə səciyyələnir.

Maliyyə dayanıqlığı və onun təyin edilməsi metodikaları, yanaşmalar işdə sərf-nəzər edilmiş, onların üstün və çatışmayan cəhətləri göstərilmişdir.

Tədqiqat obyektimiz olan neft mədən avadanlıqları istehsal edən ASC-lərdə maliyyə fəaliyyətinin mütləq və nisbi göstəriciləri, onların hesablanma alqoritmi, reallaşdırılması və bunlara uyğun idarə etmə qərarlarının verilməsi göstərilmişdir.

Avtoreferatın həcmi ilə əlaqədar burada ancaq “Neftqazmaş” ASC-nin materialları verilmişdir, digər ASC-lərin hesabatları dissertasiyada yerinə yetirilmişdir.

Maliyyə dayanıqlığının qiymətləndirilməsində nisbi göstəricilərdən istifadə göstərilmiş, bu isə təhlilin daha dərin aparılmasına imkan verir. Bu nisbi əmsalların qısa şərhini verək. Avtonomluq əmsalı müəssisənin kreditorlardan nə qədər asılı olmadığını göstərir, bu əmsal normativdən böyükdür, yəni $K_a \geq 0{,}6$. Borc vəsaitləri əmsalı dinamikada bütün ASC-lər üçün azalma meylinə malikdir, bu əmsalda da $K_{ZV} < 0{,}4$ şərti ödənilir. Maliyyələşdirmə əmsalı “BNMA” ASC-dən başqa digər ASC-lərdə artma meylinə malikdir. Burda da $K_{mal} > 1$ şərti ödənilir ki, bu da o deməkdir ki, ASC-nin fəaliyyətlərinin əsas hissəsi öz vəsait mənbələri hesabına maliyyələşdirilir. Maliyyə dayanıqlığı əmsalı normativdən yüksəkdir, yəni $K_{md} > 0{,}75$. Bu o deməkdir ki, tədqiq edilən ASC-lər qısa müddətli borc vəsaitlərindən asılı deyildir. Öz vəsaitləri ilə təminat əmsalı normativdən böyükdür, yəni, $K_{odvt} > 0{,}1$. Bu da o deməkdir ki, ASC-lərin kapitalları öz mənbələri hesabına formalaşmışdır.

Manevrlilik əmsalı onu göstərir ki, müəssisənin öz vəsaitlərinin hansı hissəsi mobil formadadır. Burada $K_{man} > 0{,}4$ - $0{,}5$. İnvestisiyalaşdırma əmsalı onu göstərir ki, müəssisənin öz mənbələri əsas kapitala qoyuluşları nə dərəcədə örtür. Burada da $K_i > 1$ şərtini ödəyir.

Maliyyə dayanıqlığının qiymətləndirilməsinin mühüm məsələlərindən biri likvidliyin təhlilidir. Likvidliyin təhlili zamanı əsas məsələ ASC-lərin öz qısamüddətli öhdəçiliklərinin yerinə yetirilməsi qabiliyyətinin tədqiqidir. Bunun üçün dövriyyə vəsaitlərinin likvidliyini qiymətləndirmək lazımdır. Likvidliyin təhlili məqsədilə ikinci fəsildə mütləq likvidliyin şərtlərindən istifadə olunur. Bu qiymətləndirmədə hər üç ASC üçün yerinə yetirilmiş, avtoreferatın həcmi ilə əlaqədar burada göstərilməmişdir.

Cari likvidlik əmsalı “Neftqazmaş” ASC-də normativdən aşağıdır, yəni $K_{car.lik} < 2$. Bu ASC-də vəsaitlərdən qeyri-səmərəli istifadəyə işarədir. Cəld likvidlik əmsalı normativdən aşağıdır, yəni $K_{cəld.lik} < 1$. Bu o deməkdir ki, ASC likvid aktivlər hesabına cari öhdəlikləri yerinə yetirmək qabiliyyətində deyildir. Mütləq likvidlik əmsalı normativdən

böyükdür, yəni $K_{mütl.lik}$>0,2. Bu da bu ASC-nin kredit öhdəliklərini ödəmə qabiliyyətinə malik olduğunu göstərir.

Maliyyə dayanıqlığının qiymətləndirilməsində üç amilli modeldən istifadə olunur. Bu modelin qurulması üçün bir sıra maliyyə göstəricilərindən istifadə olunmuşdur. Bunlara xüsusi dövriyyə vəsaitləri (ÖDV), öz kapitalının bütün mənbələri (ÖKM), dövriyyədən kənar aktivlər (DA), uzunmüddətli borc vəsaitlər (UZV), qısamüddətli borc vəsaitləri (QZV).

Maliyyə dayanıqlığı və müəssisənin müflis olması haqqında qərarın verilməsi üçün iqtisadi ədəbiyyatda E.Altmanın Z-modelindən istifadə olunur. (Başqa modellərdə vardır və bu haqda dissertasiyada qeyd etmişik)

E. Altmanın beş amilli modeli belədir:

$$Z = 1,2\,K_1 + 1,4\,K_2 + 3,3\,K_3 + 0,6\,K_4 + 1,05\,K_5 \qquad (10)$$

burada, $K_1$ – müəssisənin məcmuu aktivlərində dövriyyə vəsaitlərinin payı; $K_2$ – aktivlərin rentabelliyi; $K_3$ – ümumi mənfəətə hesablanmış aktivlərin rentabelliyi; $K_4$ – öz kapitalının bazar dəyərinin, müəssisənin qısa və uzunmüddətli öhdəliklərinin cəminə nisbəti; $K_5$ – məcmuu aktivlərin dövr etməsi Z-i tapmaq üçün tədqiq etdiyimiz ASC-in faktiki materiallarından istifadə edərək hesablama aparılmışdır.

Hesabat nəticəsində məlum olmuşdur ki, Altmanın Z-indeksi 5.504÷8.857 arasında dəyişir, bu o deməkdir ki, tədqiq edilən ASC-də müflisoluna ehtimalı yoxdur.

Dissertasiyanın **“Nəticə”** bölməsində tədqiq edilən ASC-lərdə maliyyə dayanıqlığının qiymətləndirilməsi və idarəedilməsinin təkmilləşdirilməsinə imkan verə biləcək metodiki və əməli xarakterli təklif və tövsiyələr yer almışdır. Onların bir qismini xülasə edirik:

1. Müəssisənin maliyyə dayanıqlığı, onun istehsal-təsərrüfat fəaliyyətində cəlb etdiyi müxtəlif mənbələrə malik maliyyə resurslarının optimal nisbəti ilə müəyyən olunur. Maliyyə dayanıqlığının mövcudluğu, başqa şərtlər eyni olduqda, müəssisənin ödəmə qabiliyyəti ilə şərtlənir. Ödəmə qabiliyyəti bütövlükdə, müəssisənin rentabelliyi, likvidliyi, pul axınlarının səmərəli idarə edilməsi, maliyyə öhdəliklərinin yerinə yetirilməsi imkanı kimi müəyyən edilir.

2. Müəssisənin maliyyə dayanıqlığı həmçinin maliyyə təhlükəsizliyi ilə qarşılıqlı əlaqədardər. Belə ki, maliyyə təhlükəsizliyi iqtisadi təhlükəsizliyin tərkib hissəsi olmaqla, xüsusi reallaşdırma mexanizminin olması ilə səciyyələnir. Maliyyə təhlükəsizliyi özündə kəmiyyət və keyfiyyət vəziyyəti, həmçinin xarici xarakterli potensial təhlükəni də birləşdirir. Bu isə o deməkdir ki, müəssisənin maliyyə təhlükəsizliyi xarici və daxili təhlükələri nəzərə alan tədbirlərin həyata keçirilməsi ilə səciyyələnir. Maliyyə təhlükəsizliyinin müəyyən edilməsi, bir-biri ilə qarşılıqlı əlaqədə olan, həm daxili, həm də xarici amillərlə səciyyələnir. Bu amillərin aşkar edilməsi bütövlükdə biznes fəaliyyətinin normal gedişini şərtləndirir. Məlum olmuşdur ki, maliyyə təhlükəsizliyi iqisadi, marketinq və innovasiya istiqamətlərini birləşdirir. Apardığımız təhlil göstərir ki, tədqiqat dövründə maliyyə təhlükəsizliyi 0,65 - 0,69 (vahidin hissələri) arasında tərəddüd edir ki, bu da Azərbaycanda maliyyə dayanıqsızlığının olmamasını sübut edir.

3. Tədqiq edilən ASC-lərdə reallaşdırılmış məhsul və ona təsir edən amillər müəyyən olunmuş (işçilər sayı, əmək məhsuldarlığı), onlar arasındakı əlaqə riyazi-statistik üsullarla müəyyən edilmişdir. Hər üç ASC üçün reallaşdırılmış məhsul həcmi və ona təsir edən amillər arasındakı xətti asılılıq "statistika" proqramına uyğun, kompüterdə həll edilmiş, müxtəlif reqressiya modelləri təklif edilmiş və riyazi-statistikada mövcud olan meyarlarla yoxlanılmış, alınan modellərin adekvatlığı aşkar edilmişdir.

4. Tədqiqat göstərir ki, Azərbaycanda müəssisənin istehsal potensialını xarakterizə edən avadanlıqlar, onların keyfiyyəti, təchizatı, etibarlılığı və digər məsələlər nəzəri baxımından tədqiq edilmişlər. Bununla belə, tədqiq edilən ASC-lərdə məhsul istehsalı və ona təsir edən amillərin araşdırılması kifayət qədər həll edilməmişdir. Bütün bunları, yəni, məhsul istehsalı və reallaşdırılması, ona təsir edən amillərin öyrənilməsinin vacibliyini nəzərə alaraq reallaşdırılmış məhsul, əmək məhsuldarlığı, əsas fondların və dövriyyə vəsaitlərin dəyərini nəzərə alaraq Eviews proqram paketindən istifadə edərək riyazi-statistik modellər təklif edilmiş, onların iqtisadi interpretasiyası, proqnoz-laşdırılması həyata keçirilmişdir.

5. Fondverimi göstəricisi ASC-lər üzrə müxtəlif diapozonda dəyişir. Vaxtdan asılı olaraq bu göstəricini tədqiq etmək üçün "trend"

modelindən istifadə edilmiş və hər üç ASC üçün polinomial model seçilmişdir. Trend modelini xarakterizə edən yeganə göstərici determinasiya əmsalıdır ($R^2$). "BPB" ASC-də bu əmsalın qiyməti nisbətən aşağı olmuş, digər ASC-lərdə isə onun qiyməti yüksək olmuş və 0,7826 - 0.9767 diapazonunda dəyişmişdir.

Həmçinin, tədqiq etdiyimiz hər üç ASC üçün əsas fondları xarakterizə edən fondverimi göstəricisinin əsas və dövriyyə kapitalı, əmək məhsuldarlığı və işçilər sayından asılı olan riyazi-statistik modellər təklif edilmiş, onların iqtisadi interpretasiyası verilmiş və adekvatlığı sübut olunmuşdur.

6. Maliyyə vəziyyətinin qiymətləndirilməsi, onun maliyyə dayanıqlığı və ödəmə qabiliyyəti ilə sıx əlaqədardır. Maliyyə dayanıqlığı isə mütləq və nisbi göstəricilərlə qiymətləndirilir. Mütləq göstəricilər müəssisənin maliyyələşdirmə mənbələrinin ehtiyat və xərclərlə təminatını, nisbi göstəricilər isə bu və ya digər əmsallarla onun likvidliyini xarakterizə edir. Bu məqsədlə hər üç ASC üçün maliyyə dayanıqlığının qiymətləndirilməsi və bu məqsədlə hesabatların aparılması həyata keçirilmişdir. Alınan nəticələr müvafiq normativlərlə müqayisə edilmiş və hər üç ASC-nin maliyyə dayanıqlığının qənaətbəxş olduğu sübut olunmuşdur.

7. Maliyyə dayanıqlığının qiymətləndirilməsində ən mühüm göstərici likvidlikdir. Bu məqsədlə, balansın likvidliyinin qiymətləndirilməsi hər üç ASC üçün yerinə yetirilmiş, bu zaman A1≥P1; A1≥P1; A2≥P12; A3≥P3; A4≤P4 şərtlərinin ödənməsi əsas götürülmüşdür. Alqoritm ədədi qiymətlərin alınması ilə nəticələnmiş, cari likvidlik, cəld likvidlik, mütləq likvidlik əmsalları hesablanmış, alınan nəticələr onların normativ qiymətləri ilə müqayisə edilmiş, qənaətbəxş olması sübut olunmuşdur.

8. Müəssisənin maliyyə dayanıqlığını müəyyən etmək üçün işdə üç amilli modelin qurulması təklif edilmiş, bu məqsədlə öz dövriyyə vəsaitləri, permanent kapital (xüsusi kapitalın bütün mənbələri plyus uzunmüddətli borc vəsaitləri minus dövriyyədən kənar aktivlər) və bütün vəsait mənbələri göstəricilərindən istifadə olunmuşdur.

Tədqiq etdiyimiz ASC-lər üzrə faktiki materiallardan istifadə edərək hesabatlar aparılmış və sübut edilmişdir ki, hər üç ASC-də normal dayanıqlıq mövcuddur.

9. Müəssisədə qeyri dayanıqlıq (böhran) halının müəyyən edilməsi üçün E.Altmanın beş amilli modelindən istifadə edilir. İşdə tədqiq edilən hər üç ASC üçün bu modeldən istifadə edərək, faktiki rəqəm materialları əsasında model tərtib edilmiş və Altmanın z-indeksinin 5,504 – 8,857 arasında dəyişdiyi göstərilmişdir, bu isə o deməkdir ki, baxılan ASC-lərdə müflisləşmə ehtimalı yoxdur.

10. Əgər potensial məfhumunu işçiyə, müəssisəyə, cəmiyyətə aid etsək, onda, o, müəyyən məqsədin əldə edilməsi üçün mövcud resurslardan real istifadə imkanları və qabiliyyətini ifadə edəcəkdir. Məsələ burasındadır ki, potensialın qiymətləndirilməsi problemi sahə (müəssisə) səviyyəsində kifayət dərəcədə öyrənilmədiyindən, onun inkişaf qanunauyğunluğu müəssisədə gedən proseslərin xarakterini tam açmır. Müəssisənin dayanıqlı fəaliyyəti və inkişafının formalaşması, plan və proqnozun qurulması, səmərəli qərarların qəbulu, müəssisənin qarşıda qoyulan məqsədlərin əldə edilməsi və real qiymətləndirilməsi üçün obyektiv informasiyaya malik olması təklif edilir.

11. Dissertasiya işində tədqiq edilən ASC-lərin missiyası neft sənayesinin neft-mədən avadanlıqlarına olan tələbatlarının qismən ödənilməsi, rəqabətqabiliyyətinin yüksəldilməsi, maliyyə sabitliyinin əldə edilməsi, biznesin sosial məsuliyyəti prinsipinin reallaşdırılması təşkil etdiyindən, bu cəmiyyətlərin strateji məqsədlərinin: məhsul istehsalının miqyasını və istehsal-iqtisadi səmərəliliyi artırmaq, məhsulun keyfiyyəti və rəqabətqabiliyyətini yaxşılaşdırmaq, maliyyə dayanıqlığı və səmərəliliyi yüksəltmək təklif edilmişdir.

12. Müəssisənin əmlak kompleksinin özəyini təşkil edən əsas fondların səmərəli işini xarakterizə edən göstərici fondverimidir. Fondverimi göstəricisi istehsal olunan məhsulun dəyərinin əsas fondların orta illik dəyərinə olan nisbəti kimi təyin edilir. Bununla belə qeyd etmək lazımdır ki, məhsul istehsalında dövriyyə fondları da iştirak edir və bu fondverimi göstəricisində nəzərə alınmır. Ona görə də, işdə fondverimi göstəricisinin təyin edilməsində kəsrin məxrəcində əsas fondlarla yanaşı dövriyyə fondlarının da nəzərə alınmsının nəqsədəuyğunluğu əsaslandırılmışdır.

13. İşdə qeyd olunduğu kimi, müəssisənin maliyyə dayanıqlığının idarə edilməsinin nəzəri və təcrübi aspektlərini

fərqləndirmək lazımdır. İdarəetmənin nəzəri məsələləri, müəssisənin daxili və xarici amilləri, onların qarşılıqlı əlaqəsi, mövcud maliyyə resurslarının bölüşdürülməsi, fəaliyyət və inkişaf istiqamətlərinin müəyyən edilməsi üçün maliyyə dayanıqlığının qiymətləndirilməsi və ona təsir edən amillərin müəyyən edilməsi, maliyyə resurslarının idarəedilməsi kimi tədbirlərin işlənilməsi və reallaşdırılması təklif edilmişdir.

**Tədqiqatın əsas müddəaları müəllifin nəşr etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**


1. Tağıyeva, T.Ə. Maliyyə dayanıqlığının qiymətləndirilməsi // Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri. Respublika elmi konfransının materialları, – Sumqayıt: SDU, 25-26 aprel, – 2019, – s. 403-406.
2. Tağıyeva, T.Ə. Məhsulun rəqabətqabiliyyətinə dair. // Şaxələndirilmiş iqtisadiyyatın infrastruktur təminatı: əsas meyllər və inkişaf istiqamətləri mövzusunda Beynəlxalq Elmi konfransın materialları. Azərbaycan Memarlıq və İnşaat Universiteti, – Bakı: 23-24 may, – 2019, – s. 401-404.
3. Səfərov, Q.Ə., Tağıyeva, T.Ə. Maliyyə dayanıqlığının nəzəri məsələləri // – Tikintinin iqtisadiyyatı və menecment. – Bakı: – 2019, № 2, – s. 36-42.
4. Məmmədov, M.A., Bədəlov, T.Ə., Şıxıyeva, S.M. Sənaye sahələrinin maliyyə dayanıqlığının problemləri // Azərbaycan neft təsərrüfatı, – Bakı: 2019, № 8, – s. 58-63.
5. Tağıyeva, T.Ə. Məmmədov, M.A., Bədəlov, M.M. Azərbaycanın neft-qaz kompleksində investisiya qoyuluşunun əsas istiqamətləri // Tikintinin iqtisadiyyatı və menecment. – Bakı: –2019, №3, – s. 68-74.
6. Tağıyeva, T.Ə. Neftmaşınqayırma müəssisənin fəaliyyətində maliyyə təhlilinin rolu // – Bakı: Azərbaycan neft təsərrüfatı, – 2020, № 11, – s. 62-66.
7. Tağıyeva, T.Ə. Neft-Mədən avadanlıqlarına texniki xidmətin idarə edilməsi. // – Bakı: Tikintinin iqtisadiyyatı və menecment, – 2020, № 3 – s. 174-177.

8. Сафаров, Г.А., Тагиева, Т.А., Садыгова, С.С. Повышение эффективности использования основного капитала в нефтяном машиностроении. // Финансовый бизнес, – Москва: – 2021, № 11. – с. 266-273.

9. Safarov G.A., Taghiyeva T.A., Sadiqova S.S. Improving the use of fixed and working capital in the enterprise. // Журнал Экономика и предпринимательство. – Москва: – 2021, № 9(134), – pp. 1053-1061.

10. Tağıyeva T.Ə. Mathematical-statistical analysis of products sold in enterprises. // Social and Economic Aspects of Education in Modern Society. Proceedings of the XXVII International Scientific and Practical Conference, – Poland Warsaw: march 25, -2021, -pp. 34-38.

11. Tagiyeva Turan, Analysis of the production profitability of machine works with the application of economic and mathematical method. // World Science: Problems, Prospects And Innovations. Proceedings of XII International Scientific and Practical Conference, -Toronto, Canada: august 11-13, -2021, -pp. 132-142.

12. Tagiyeva, T.A. Assessment Of The Impact Of Economic Growth In The Processing Industry In Azerbaijan. // Economics. -Moscow: – 2021, № 3(50), – pp. 26-32.

13. Tağıyeva T.Ə. Neftmaşınqayırma ASC-də reallaşdırılmış məhsulla əsas və dövriyyə kapitalı arasındakı asılılığın riyazi-statistik modelləşdrilməsi // Tikintinin iqtisadiyyatı və menecment, – Bakı: – 2022, № 2. s. 109-116

14. Turan Taghiyeva, Inna Tiutiunyk. Innovative, economic and marketing determinants of financial security and sustainability of business. // – Marketing and Management of Innovations, – Ukraine: – 2022, issue 1, -pp. 176-185.

15. Neftmaşınqayırma müəssisələrində reallaşdırılmış məhsulun səviyyəsinə təsir edən amillər. Azərbaycan Neft Təsərrüfatı jurnalı. Bakı: – 2022. 06-07. s. 62-70.

Dissertasiyanın müdafiəsi 22 noyabr 2023-cü il tarixində saat $16^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 21 oktyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20 oktyabr 2023-cü il

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 46719 işarə

Tiraj: 100